# Ukrayna mediası ABŞ-nin vitse-prezidentinin Azərbaycana səfərinə geniş yer ayırıb




ABŞ-nin vitse-prezidenti Cey.Di.Vensin Azərbaycana səfəri Ukrayna mediasında geniş işıqlandırılıb.




AZƏRTAC-ın məlumatına görə, səfər zamanı iki ölkə arasında imzalanmış Strateji Tərəfdaşlıq Xartiyası, Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ vitse-prezidenti Cey.Di.Venslə mətbuata birgə bəyanatı zamanı səsləndirilən fikirlər "Ukrinform" dövlət informasiya agentliyində, "Korrespondent", "Azadlıq" radiosunun Ukrayna




redaksiyası, "Yevropeyska Pravda" və digər nəşrlərdə geniş yer alıb.

Məqalələrdə bildirilir ki, səfər zamanı iki ölkə arasında imzalanmış Strateji Tərəfdaşlıq Xartiyası ilk dəfə ötən ilin avqust ayında Vaşinqtonda Prezident İlham Əliyevlə ABŞ Prezidenti Donald Tramp arasında danışıqlar zamanı təqdim edilib.

---

Azərbaycan.- 2026.- 13 fevral (№28).- S.5.